# BİR ŞEİRİN TARİXÇƏSİ VƏ S.

**Əbədiyaşar Bəxtiyar Vahabzadə özünün "İstiqlal"ında (Bakı, 1999, səh.69) yazırdı: "Mənim rejimə qarşı yazdığım bir sıra əsərlərin, o cümlədən "Bağışlayın, səhv olub", "Mərziyə", "Ləyaqət", "Dan yeri" və s.-in səbəbkarı Şirməmməd müəllim olmuşdur. Daha doğrusu, mövzunu o seçmişdir". Təkcə bunlarınmı? Əlbəttə, yox!**

"Əqidə və məsləki poladdan" "Tanrının bizə bəxş etdiyi insan" sərlövhəli yazılarımda iki böyük şəxsiyyətin-Xalq şairi Bəxtiyar Vahabzadənin və millət, xalq aşiqi Şirməmməd Hüseynovun əqidə və məslək dostluğundan söhbət açmış, unudulmaz şairin yaradıcılığında cəfakeş müəllim, publisist və tədqiqatçı alimin yeri və rolundan bəhs etmişdim. Dübarə xatırlatma etmək istəyirəm ki, o məşhur "Gülüstan" poemasının ideyasını və mövzusunu ömür yollarının 50 ildən çoxunu bir yerdə-bərabər addımlayan əqidə və məslək fədaisi Şirməmməd Hüseynov vermişdi. "Gülüstan"dan sonra güclü təzyiqlərə məruz qalan Bəxtiyar Vahabzadə yuxarıların bu təzyiqindən qurtarmaq üçün "Leninlə söhbət" poemasını da Şirməmməd Hüseynovun məsləhəti ilə yazmış, hətta fəsillərin başlığında Lenindən gətirdiyi sitatları da, onların şərhini də o təqdim etmişdir.

Şirməmməd müəllimin elə həmin poema ilə bağlı xatırlamalarından:

"Bu poemaya münasibət birmənalı olmadı. Əsər hissə-hissə çap olundu Sonradan gördülər ki, Bəxtiyar dolayısı ilə rejimin özünü ifşa edib. Necə deyərlər, onları aldadıb".

Bəxtiyar Vahabzadə Şirməmməd müəllimin insani keyfiyyətlərindən məqalə və məktublarında da dönə-dönə bəhs etmişdir. Böyük şair bir ömür boyu dostluq etdiyi, məsləhət və tövsiyələrindən bəhrələndiyi Şirməmməd Hüseynovu təkcə fikir, düşüncə və əqidə yoldaşı kimi yox, onun təmizlik, paklıq və ziyalılıq nümunəsi olan fəaliyyətindən də bir sıra məqalə və məktublarında yüksək qiymətləndirilmişdir.

Ümumiyyətlə Şirməmməd müəllim bir vətəndaş kimi, bir ziyalı kimi, bir tədqiqatçı alim kimi çox ayıq-sayıq adamdır. Mütaliəsi geniş, eridusiyası güclü, fikir və düşüncələrində azad və səmimidir.

"Əkinçi" qəzetinin 29 fevral 1876-cı il tarixli dördüncü sayında Gəncəli Hacı Məhəmməd Sadiqin "Körpü sudan uzaq qalıb" adlı yazısı dərc olunub.

Məqaləni oxuyan Şirməmməd müəllimin ürəyi riqqətə gəlir, vəfalı qələminə və ilhamına sarılaraq 1992-ci ildə "Əkinçi"də dərc olunmuş yazıdan 116 il sonra "Körpü sudan yenə də uzaqdır" adlı məqaləsini yazır.

Millət qayğılarını və onun o günlərdəki vəziyyətini müqayisə edərək bir vaxtlar intibahın və inkişafın Şərqdən başlandığını, İslam və böyük Türk dünyasının bəşər tərəqqisinin önündə getdiyini, onun yol göstərəni və ilhamvericisi olduğunu, lakin sonradan vəziyyətin dəyişdiyini, intibahın və yüksəlişin Şərqdən Qərbə keçdiyini dilə gətirir.

Hər iki yazının aktuallığı, bu günkü gün üçün də böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq onların nöqtə və vergülünə belə toxunmadan diqqətinizə təqdim edirəm.

**Gəncəli Hacı Məhəmməd Sadiq**

### *1876-KÖRPÜ SUDAN UZAQ QALIB*

Neçə qisim qardaşlıq var. Onun iki qismindən danışaq. Əvvəl bəni-adəm və növi bəşərlik qardaşlıqdır ki, hamı kəs bir-birilə qardaşdırlar. Amma ixtilafi-əqaidə (əqidələrə) binaən firqə-firqə olub hər biri bir millət adlanıb, onların böyük icmasına dövlət deyilir və kiçik icmalar bir dövlətə tabe olmaq səbəbilə asudə olublar. Məgər Dəşti-Qıpçaq əhalisi və əgər onlar həm öz məsləhətlərinə binaən təfəkkür, təəggül (düşünmə) etsələr, onlara məlum olur ki, bir dövlətə tabe olalar, həm özləri asudə olurlar, həm başqa xalq onların azarından xilas olurdu və özləri özgəyə baxıb elmi-ədəb öyrənib tərəqqi tapardılar. Amma dövlətlər üçün iki məqam var: biri-məqami-cəng ki, onun təklifi (vəzifəsi) özgədir və biri məqami-sülh ki, ol vaxtda gərək hamı bir-birilə məhəbbət və doğruluq ilə rəftar etsinlər, ona binaən ki, insan məişət üçün bir-birinə möhtacdır, adamın işi adam ilə keçər və əgər doğruluq olmasa bir-birindən nəfbərdar ola bilməz. İkinci, millətin qardaşlığıdır. Bunlar gərək ziyadə qardaşlıq mərasimin müraat edib (gözləyib) məhəbbət, insaf və doğruluq ilə bir-birilə rəftar etsinlər. Hansı ki, aciz və miskinlər, gərək əl-ələ vermək ilə dolandırmaq. Amma bizim camaatda pul qazanmaq elmləri az olduğuna varlımız az və bibəzaətimiz (kasıblarımız) çoxdur və hamısının varlıqdan bir növ çeşmdaştı (ümid bəsləməyi) var. Zihaza (buna görə) az qardaşlar çox qardaşları dolandıra bilməz, ona binaən gərək varlılar insafı və varsızlar doğruluğu və insafı ortalığa qoyub, bir-birilə əl-ələ verib köməkləşib, dövlət qazanmaq təriqəsini (yolunu) tanımağa səy etsinlər, ta millət dövlətləri tərəqqi tapsın. Amma çifayda, bizim varlı, varsız, hər kəs öz haqqına razı olmamağına binaən bir-birinə inanmır. Belə də işlər yerdə qalır...

Amma milləti qardaşlar, bilin ki, körpü sudan uzaq qalıb, necə ki, sabiq ərz oldu, əql itib hər kəs bir təriq ilə özünə çıxıb: həmçinin kəmal da itib hər kəs özünə çıxır...

**Əhsənül-Qəvaid.**
**("Əkinçi", №4,**
**24 fevral 1876).**

**Şirməmməd Hüseynov**

### *1992- KÖRPÜ SUDAN YENƏ DƏ UZAQDIR*



Məktub müəllifinin "Körpü sudan uzaq qalıb" kəlamında çox böyük tarixi həqiqət, xəbərdarlıq və həyacan ehtiva olunmaqdadır. Vaxtilə tarixin inkişaf və təkamül yolu, bəşəri tərəqqinin məcrası Yaxın və Orta Şərqdən, bütövlükdə Məşriqdən keçirdi. Min illər ərzində hər bir müstəqil yaşamaq iqtidarında olan xalq öz zaman körpüsünü məhz bu məcraya uyğun qurmağa, dövrlə, tarixlə bir səmtdə addımlamağa, irəliləməyə səy və qeyrət göstərirdi.

Lakin fələyin çərxi istiqamətinin, bəşəri tərəqqinin zaman və məkanın dəyişdiyi qlobal qütbləşmə dövründə yeni körpülər salmaq hər xalqa müyəssər olmamışdır. Mühafizəkarlıq, keçmişlə öyünmək, elm və ictimai tərəqqiyə laqeydlik çox-çox ölkə və xalqları yeni məcradan kənarda saxlamış, cəhalət və zülmətə qərq etmişdir. Hacı Məhəmmədsadıq bundan qabaqkı məktublarının birində ürək ağrısı ilə haray çəkərək yazırdı: "Ey yapan! (ey dostlar!) Nə yatıbsız, oyanın, karvan getdi, biz qaldıq, əcəb bixəbəriik!", yaxud "dövləti eşşəklərə vermişik, neməti itlərə. Bəs biz dünyaya tamaşa etməyə gəlmişik?".

Müəllifin milləti vahid bir qardaşlıq toplumu kimi görməsi barədəki mülahizələri də diqqət veriləsi cəhətdir. Dövlətliləri "az qardaşlar", kasıbları "çox qardaşlar" kimi səciyyələndirən gəncəli soydaşımız hamını birliyə, "insaf və doğruluq ilə əl-ələ verib" "pul qazanmaq elmlərini öyrənməyə", "dövlət qazanmaq yolunu tapmağa" çağırırdı.

"Əkinçi"nin nəşrindən, bu məktubların işıq üzü görməsindən 116 illik bir dövr keçir. Dünya əsaslı surətdə dəyişməkdədir. Biz də dəyişirik. Amma etiraf edək ki, körpü sudan yenə də uzaqdadır. Tarixi bir həqiqət var ki, köhnə körpüləri yıxıb dağıtmaq çox-çox asandır. Əgər bu dəfə də "karvan getsə, biz qalsaq" aqibətimizin necə olacağını təsəvvür etmək çətindir. Bu gün isə üzümüzü gəncəli Hacı Məhəmmədsadıq kimi qeyrətli uzaqgörənlərə tutaraq deyirik ki, Allah sizə min rəhmət etsin, kişilər!"

Şirməmməd müəllimin bütöv təqdim etdiyim bu məqaləsi Araz niskilli, "Gülüstan" şairini bərk tutur, ilham pərisi o taylı, bu taylı vətən və millət fədaisinidilə gətirir.

Beləliklə də B. Vahabzadə dostunun məqaləsindən təsirlənərək eyni adla "Körpü sudan uzaq düşüb" şeirini yazır. Ömrünü harayda əritdiyini, səsinin eşidilmədiyini biri ikiyə parçalayan çayda üzə bilmədiyini və körpünün çaydan uzaq düşdüyünü dilə gətirən "Gülüstan" ağrılı şair yenə köhnə dostuna üz tutub xitab edir:

### *KÖRPÜ ÇAYDAN UZAQ DÜŞÜB*

***Köhnə dostum***
***H.Şirməmməd müəllimə***

**Hələ toxum cücərməmiş,**
**Tarlamıza alaq düşüb.**
**Başımız da daz olalı,**
**Əlimizə daraq düşüb.**

**Xəyallarım - qanad-qanad,**
**Ətəyimdən dartdı həyat.**
**Dünənimə Dürat, Qırat,**
**Bu günümə ulaq düşüb.**

**Əlim üzüldü diləkdən,**
**Dilim yandı "gəl" deməkdən.**
**Öz haqqını gözləməkdən**
**Haqqın gözünə ağ düşüb.**

**Bu tayda sən, o tayda mən,**
**Üzəmmədim bu çayda mən.**
**Ömr əritdim harayda mən,**
**Körpü çaydan uzaq düşüb.**

**Dekabr, 1992**

Şirməmməd Hüseynovun "Günay" qəzetinin 15 dekabr 2001-ci il tarixli nömrəsində dərc olunmuş "1986-cı il, 17 dekabr. Alma-Ata hadisələri. Bakıda əks-səda" adlı məqaləsində oxuyuruq: "Əvvəlcə 18 il dəbdəbəli həyat sürən, sinəsini qəhrəmanlıq nişanları, orden və medalları ilə bəzəyən, dünyada mövcud minik maşınlarını toplamaq azarkeşi kimi tanınan Brejnev, ardınca onun kürsüsünə yiyələnmiş, 1956-cı il macar hadisələrinin "qəhrəmanı", tanınmış çekist Andropov, qısa bir müddətdən sonra uzun illərin xəstəsi, yeni baş katib Çernenko dünyalarını dəyişdilər".

Bu təqdimatdakı istehzalı kinayəni duymamaq mümkünsüzdür. Və onun özünün də bu sistemdən az çəkmədiyini asanlıqla sezmək və anlamaq olar.

"... Belə bir mürəkkəb şəraitdə Mixail Qorbaçov hakimiyyətə gəldi. Yenidənqurma, aşkarlıq, iqtisadi islahatlar, antialkoqol kompaniyası, sosializmə insançılıq və demokratik səciyyə vermək və s. günün şüarlarına çevrildi. Qorbaçov da özündən əvvəlkilərin təcrübəsinə sadiq qalaraq dost və aşnalarını ətrafına yığmağa başladı.

1986-cı ilin dekabrında növbə Qazaxıstana, respublikaya uzun müddət başçılıq etmiş və qazaxların az-çox rəğbətini qazanmış D.Kunayevə çatdı. Qorbaçov qazax Kunayevin yerinə, rus Kolbini gətirdi. Bu vətənpərvər qazax gəncləri və ziyalılarının ciddi narazılıq və etirazına səbəb oldu. 1986-cı il dekabrın 17-də Alma-Atada-şəhərin baş meydanında böyük bir etiraz mitinqi toplandı. Mitinq vəhşicəsinə dağıdıldı. Yüzlərcə gənc həlak oldu, yaralandı, kütləvi həbslər, qarayaxmalar, böhtanlar və iftiralar başladı".

Şirməmməd Hüseynov dostlarına sovet imperiyasının sarsılmasının 1986-cı il dekabr ayının 17-də Alma-Ata etirazından başlandığını bildirir. Qazağıstanda Kunayevin yerinə rus çinovniki Kolbinin təyin olunmasına qazax millətinin etirazlarının imperiyanın sarsılmasının ilk xəbərçisi olduğunu söyləyirdi. Əqidə və məslək dostu Bəxtiyar Vahabzadə ilə görüşləri zamanı da dönə-dönə bu hadisələrin üzərinə qayıdıb, "İndi mən bu hadisələri qələmə ala bilən oğlul istəyirəm"-deyə dostunu bu məsul və şərəfli missiyanı üzərinə götürməyə səsləyirdi.

Bəxtiyar Vahabzadə ona: "Sən mənim bir neçə əsərimin yaranması üçün əlimə tutalqa vermisən, indi bu hadisənin də qələmə alınması üçün əlimə bir dəstəvuz ver. Gör necə yazıram".-deyəndə Şirməmməd müəllim əlini ciibinə salıb pasportunu çıxarır , verir dostuna və deyir:

**- Alma-Ata hadisələri 1986-cı il dekabrın 17-də baş verib. Bax bu da mənim doğum günüm-dekabrın 17-si. Guya ki, sən bu şeiri mənim doğum günüm-münasibətilə yazırsan. Ancaq içində nə yazacaqsan, daha o sənin öz işindir!**

**(ardı var)**

Orsər Ramiz